# Xalqın və dövlətin maraqlarına xidmət edən siyasət



*2003-cü ildə Azərbaycan xalqı ilk dəfə mənə etimad göstərərək, bir daha ulu öndərin siyasətinə sədaqətini nümayiş etdirdi. Mən isə öz növbəmdə demişdim ki, əgər xalq etimad göstərərsə, mən prezident kimi Heydər Əliyev yolu ilə gedəcəyəm, bu yoldan dönməyəcəyəm və ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyəm. Buna and içmişdim. Xoşbəxt adamam ki, bu anda sadiq oldum və bu gün Qarabağ azaddır.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

***Şuşada bir-birinin ardınca, fasilə vermədən keçirilən yerli və beynəlxalq tədbirlər haqqında verilən məlumatları izləyərkən qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın bir ifadəsi yada düşür. Cənab Ərdoğan demişdi ki, Azərbaycanın bugünkü uğurlarını qardaşım Əliyevin xalqın və dövlətin maraqlarına xidmət edən siyasəti, yorulmaz fəaliyyəti və möhkəm iradəsi, qətiyyəti təmin etmişdir.***

Yeri gəlmişkən, bu sətirlərin əvvəlində Türkiyə Prezidentinin bilavasitə Şuşada dilə gətirdiyi qardaş məmnunluğunu xatırlatmağımız yerinə düşər: "Qardaşım Əliyevin uzaqgörən liderliyi və müzəffər Ali Baş Komandanlığı ilə azadlığına qovuşan Qarabağın yenidən dirçəldilməsi işlərini yaxından izləyirik. Şuşaya gələrkən bu işləri gördük... Fasiləsiz iş görülür, infrastruktur sahəsində intensiv iş aparılır. Bir tərəfdən yollar salınır, bir tərəfdən enerji stansiyaları açılır, bir tərəfdən yüksəkgərginlikli xətlər çəkilir. Bütün bunlarla yanaşı, susuz olan bu bölgə suya qovuşur... İnşallah, ən qısa vaxtda bölgə hava limanına, hava limanlarına da qovuşacaq... Hava limanına, hava limanlarına da qovuşduqdan sonra buralara gəliş-gediş daha da artacaq və inanıram ki, bu bölgə o dövrdə turizmdə də ciddi bir sıçrayışı yaşayacaq".

Bəli, 1992-ci ilin yayından etibarən xalqın maraqlarını, dövlətin mənafelərini təmin edən daxili və xarici siyasətimiz bu gün özünün ən möhtəşəm uğurları ilə bütün dünyada tanınır və qəbul edilir. Dövlət başçımız məmnundur ki, son zamanlar bizim xarici siyasətimiz çox fəal olub. Xarici siyasət istiqamətində yeni önəmli addımlar atılıb, ölkəmizin beynəlxalq nüfuzu daha da artıb. Azərbaycanın Qoşulmama Hərəkatındakı uğurlu sədrliyi, yekdil fikirlə bir il də 2023-cü ilə qədər uzadılıb. İslam Əməkdaşlıq Təşkilatının yeni baş katibi Azərbaycana gəlmiş, Bakı ilə yanaşı, azad edilmiş torpaqlara – Füzuliyə, Şuşaya səfər etmişdir.

Azərbaycanın Avropa miqyaslı beynəlxalq təşkilatlarla əməkdaşlığı da məhz xalq və dövlətə xidmət etmək kimi konkret məqsəd güdür. Bu il Avropa İttifaqı ilə əməkdaşlığımız daha da fəal olmuş, yeni müstəviyə qaldırılmışdır. Bu günlərdə Avropa İttifaqı ilə Azərbaycan arasında önəmli sənəd – enerji təhlükəsizliyi ilə bağlı müqavilə imzalanmışdır. Həmin sənəd əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldıracaqdır.

Təbii ki, milli maraqlarımız sırasında Türk Dövlətləri Təşkilatı ilə olan əməkdaşlığımızın daha da dərinləşdirilməsi əsas istiqamətlərdən biridir. Dövlət başçımızın bu il Türkiyə Prezidenti ilə üç görüşü olub. Aprel ayında Qırğızıstan Prezidenti Azərbaycana səfər etmiş, iyun ayında isə Azərbaycan Prezidentinin Özbəkistana və Türkmənistana səfərləri baş tutmuşdur.

Eləcə də, qonşu ölkələrlə əlaqələrimiz hər zaman bizim üçün əsas prioritetlərdən biri olub. Cari ildə də bu istiqamətdə addımlar atılıb. Prezidentimiz bu il Rusiya, İran, Gürcüstan prezidentləri ilə görüşmüş, qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdir.

Xalqımızın və milli dövlətçiliyimizin maraqlarına xidmət edən əsas istiqamətlərdən biri də Azərbaycan–ABŞ münasibətlərindəki müsbət dinamikanın artırılmasıdır. Sevindirici haldır ki, rəsmi Bakının yeritdiyi xarici siyasət Vaşinqtonda nəinki təqdir edilir, hətta yüksək qiymətləndirilir. Son illər bu istiqamətdə önəmli addımlar atılmış, yüksək vəzifəli şəxslərin qarşılıqlı səfərləri təşkil edilmişdir. Amerika Birləşmiş Ştatlarının Prezidenti bu yaxınlarda Azərbacan prezidentinə iki dəfə məktub göndərmişdir. Həm Müstəqillik Günü, həm Bakı Enerji Həftəsinin açılışı ilə bağlı olan həmin məktublarda qeyd edilir ki, rəsmi Vaşinqton gələcəkdə də Bakı ilə əməkdaşlığı genişləndirmək istəyir.

Dövlət başçımızın fikrincə, hər bir ölkəyə daxili siyasəti düzgün aparmaq üçün müsbət beynəlxalq fon lazımdır – ilk növbədə, qonşuluqda, digər tərəfdən də dünyada. Qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycan buna nail ola bilmişdir. Çünki əsas beynəlxalq oyunçularla, əgər belə demək mümkündürsə, bizim artıq oturuşmuş və dərin məzmunlu əməkdaşlıq formatımız vardır.

Düşünürəm ki, bizim işğalçı Ermənistana qarşı apardığımız siyasi, diplomatik və hərbi mübarizəmizin xalqın və dövlətin maraqlarına nə dərəcədə xidmət etdiyini söyləməyə ehtiyac yoxdur. Ancaq qeyd etməliyəm ki, Prezident İlham Əliyevin 2020-ci il noyabrın 8-də Fəxri xiyabandan xalqa müraciəti düşmənin əsrlər boyu davam edən fitnə-fəsadının, bizə verdiyi əzab-əziyyətin, soyqırımlarının ağrısını kifayət qədər azaltmışdı.

Mən inanmıram ki, hansısa azərbaycanlı, nə zamansa həmin müraciəti unuda bilər: "Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Biz mülki vətəndaşlara qarşı heç vaxt müharibə aparmamışıq, bu dəfə də aparmamışıq. Baxmayaraq ki, mənfur düşmən 93 mülki şəxsi namərd atəşlə öldürüb, 400-dən çox mülki şəxs yaralanıb. Amma mən dedim yox, biz azərbaycanlıyıq! Biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq! Onların ordusunu məhv etmişik, texnikasını məhv etmişik, məhv edirik və edəcəyik. Düşməni qovuruq və qovacağıq!

Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Azərbaycan xalqı Prezident İlham Əliyevi bir də ona görə sevir və etimad göstərir ki, o, müasir Azərbaycan Ordusunu heç zaman olmayan bir səviyyəyə qaldırmış, dünyanın ən güclü silahlı qüvvələrindən birinə çevirmişdir. Dövlət başçımız xalqı əmin edir ki, həmin tendensiya bu gün də davam edir, gələcəkdə də davam edəcəkdir: "Bu altı ay ərzində hərbi sahədə də islahatlar aparılıb. Struktur islahatları aparılıb, hərbi təhsildə islahatlar aparılıb. Təlimlərlə bağlı ciddi addımlar atılıb. Yeni silahlı birləşmələr yaradılıb. Yeni kontraktlar imzalanıb, hərbi texnika, silah-sursatlar alınır və alınacaq. Biz ordu quruculuğu sahəsində öz işlərimizi davam etdiririk... Ən müasir hərbi texnika və silahların alınması üçün bu il dürüstləşmə zamanı hərbi xərclərimiz artıb. Nə qədər lazımdırsa, o qədər də artıracağıq. Çünki biz müharibə nədir, işğal nədir yaxşı bilirik və təhlükə nədir onu da yaxşı bilirik. Hər an hazır olmalıyıq ki, öz hüququmuzu istənilən yolla təmin edək".

Dövlət başçımızın bu qətiyyətinin və fəaliyyətinin isə bir adı var: Xalqın və dövlətin maraqlarını təmin etmək.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***